*İsmayıl VƏLİYEV*

# AZƏRBAYCAN MİFİK TƏFƏKKÜRÜNDƏ SEHRLİ QUŞLAR

**(Müqayisəli təhlil)**

Giriş

Miflərin tarixinin öyrənilməsi, mifoloji obrazların müqayisəli təhlili xalqların qədim əlaqələrini, ədəbi təfəkkür tərzini müəyyənləşdirməyə kömək edir. Mifik obrazlar içərisində ayrı-ayrı canlılar və heyvanlarla yanaşı, quşlar da önəmli yer tutur. Azərbaycan folklorunda Simurq quşu, ququ, durna, göyərçin, qumru, şahin, qartal, bülbül, yaşılbaş sona (ördək) və s. obrazları diqqəti çəkir. Ruslardakı Feniks quşu da, yunan, Bizans və digər xalqların əski inanclarından qaynaqlanaraq üzə çıxan obraz kimi meydana gəlmişdir. Rus-Slavyan düşüncəsində yer alan Jar-ptisa, yə'ni qanadları işıq saçan quş və xoruz obrazı da maraqlıdır (1).

Günəşin təbiətini özündə birləşdirən, işıq saçan quş obrazlarından biri də İndoneziya mifologiyasında yaşamaqdadır. Bir zamanlar Qaruda adlanan belə bir quşun heykəli Sankt-Peterburq şəhərindəki muzeyə – Ermitaja hədiyyə edilmişdir və orada saxlanılmaqdadır. Qaruda obrazı hind mifologiyasında, buddizmdə də önəmli yer tutur və Naqa ilanlarına qarşı mübarizə aparır. Bu obraz tibet, monqol, buryat, kalmık mifologiyasında da mövcuddur.

Skif-oğuz mifologiyasında, o cümlədən Sibir-run yazılarında və yazıya bənzər işarələrində də belə rəsmlər çoxdur (2). Keltlərin və başqa xalqların mifologiyasında uçan öküz, uçan delfin, uçan adam təsvirləri də, yarı quş, yarı adam obrazları da geniş yayılmışdır. Yunanlardakı şirinsəsli Siren quşunun bənzərinə – moğollara da rast gəlinir. Belə böyük bir quşun təsviri slavyanlarda da vardır (şəkil 1).

"Avesta"nın mifik sistemində xvarno, varaqn quşu ən'ənəyə görə savaş və qələbə ilahəsi Vertraqna ilə bağlıdır. "Hamayun quşunun nəğməsi"ndə təsvir olunan obraz adının türk-altay mifologiyasındakı Humay olduğu da qeyd edilir (3).

Bu mövzu ilə bağlı A. M. Saqalayevin "Həyat verən quş" (Fin-uqor xalqlarının dünyagörüşü), B.N.Toporovun "Sibir xalqlarının mifologiyasına iranlıların tə'siri haqda iki qeyd" əsərində, V. B. Yaşinin "Qərbi Sibirin uqor xalqlarının mifologiyasında iran elementləri" və başqa əsərlərdə də maraqlı bilgilər vardır. Frolov və Çekriyovanın "Altayın skif dövrü" əsərində bu cür, bir çox yunan miflərinin, həmçinin Avrasiya xalqların miflərinin süjetlərinin Altay skiflərindən götürüldüyü qeyd olunur (4).

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tarixən yaranan, formalaşan mifik obrazlar xalqın mədəniyyətində, məişətində uzun müddət yaşadığına görə onun tə'sirləri və sənətdə təsvirləri də müəyyən bir sistem halına gəlmişdir. Belə sistemli təsvir, məsələn: Skif üslubu kimi özünə elmdə yer almışdır. Skif üslubu çox böyük ərazilərdə – Sibirdən Orta və Cənubi Avropaya, hətta Kiçik Asiyaya qədim dövrdən yayılmışdır. Sibir-Altay və ümumən, əski türk mifologiyasında və folklorunda yer alan mifik obrazların təsvirinin sistemləşməsi halına Qafqaz-türk xalqları arialında da müşahidə olunur. Dini inanc sistemində üstünlük qazanmasa, bu mifik obrazların geniş ərazilərdə yayılması və xalqın məişətində üstün yer tutması, yəqin ki, mümkün olmazdı. Azərbaycan mifologiyasında Simurq quşu, göyərçin, qartal, şahin, durna və sairə obrazları da bu qəbildəndir.

Azərbaycan mifik təfəkküründə quşlar

Azərbaycan mifologiyasında yer alan quş obrazlarından Simurq quşunun konkret olaraq hər hansı gerçək quşla əlaqələndirilməsi mümkün deyil. Lakin Simurq quşunun xeyirxahlığı, insanlara, darda qalanlara yardım etməsi, qaranlıq dünya ilə işıqlı dünya arasında sərhədsiz məsafə qət etməsi onu Humay quşuna yaxınlaşdırır, hətta eyniləşdirir. Simurq quşunun obrazı təsviri sənətdə, o cümlədən rəssamlıqda geniş yayılmışdır. Müxtəlif cür təsvir edilsə də, bu obrazların hamısı eyni mə'na və məzmunu ifadə edir. Bakıdakı Nizami adına Ədəbiyyat Muzeyindəki simvolik təsvirdə bu quşdakı gözəllik, xeyirxahlıq, qanadlarının işıqlı xalları və sairə ümumiləşdirilir. "Dədə Qorqud kitabı"nda bir neçə quşun adı çəkilir: şahin, qartal, qu quşu və s. Bunlardan Azərbaycan mifologiyasında qədimdən yayılan mifik quş obrazı kimi qu quşu və durna xüsusilə maraq doğurur. Bu yazıda məqsədimiz də məhz qu və durnanın mifik obrazına, onların tarixən xalqımızın məişətində tutduğu önəmə diqqət verməkdir.



Øÿêèë 1.

Azərbaycanın görkəmli folklorşünas alimi M.H.Təhmasib "Əfsanəvi quşlar" məqaləsində digər quşlarla yanaşı, Zümrüd (Simurq) quşundan geniş bəhs etmişdir (5). Bu quşun İran, Orta Asiya, ərəb və

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycan mifologiyasında zoomorfik surət, xeyirxahlıq hamisi kimi qəbul olunduğu göstərilir. O, əfsanə, nağıl və dastanlarda uzaq məsafəni bir anda qət edən nəhəng, sehrli gücə malik quş kimi təsvir olunur. "Avesta"ya görə, dənizdə bitmiş bir ağacın başında, "Şahnamə"yə görə, Elbrus dağının zirvəsində, Azərbaycan və ərəb folkloruna görə isə, "Qaf" dağında yaşadığı bildirilir. Azərbaycan nağıllarından "Simnarın nağılı" və "Məlikməmmədin nağılı"nda bu quş tilsimi qırır, qaranlıq dünyaya düşmüş qəhrəmanı xilas edib işıqlı dünyaya qaytarır (6, 440).

Qızın, qadının quş timsalında təsvir edilməsini "Dədə Qorqud kitabı"nda da aydın görürük. Kitabda "qaza bənzər qız" (7, 106) ifadəsi işlənir. Dastanda "oğlan quş ürəkli olur" (8, 162) sözlərindən də quş ürəkliliyin qızlara məxsusluğu aydınlaşır. Gözəl qız-gəlinlərin qaza bənzədilməsi də bədii təsvirdə xüsusi yer tutur: "Qaza bənzər qız-gəlini ağ çıxarıb qara geydi" (9, 110).

Qazan xanın çox əski inanclara dayanan soykökü təsvirdə "Ağ qayanın qaplanı" və b. güclü heyvanlarla yanaşı, "Ağ şunqur quşu erkəyində bir köküm var" (10, 119) deməsi də, yəqin ki, ana tərəfin təmsilçisi kimi quşun nəsil kökündəki iştirakı xatırlanır və bu, ana tərəfin müqəddəsliyini, göylərlə əlaqəsini bildirir.

Azərbaycan folklor materiallarının verdiyi bilgilərə görə, durna vətən, torpaq rəmzidir, evin, ocağın nişanəsidir, qəriblərə, vətəndən ayrı düşənlərə həyandır, onlara yol göstərəndir. Qu quşları da, təxminən, həmin funksiyaya malikdirlər. Lakin onlarda əlavə önəmli cəhətlər də var. Qu quşları – qız, qadın və ana rəmzidir. Qu quşları mifik Humay quşunun yerdə təmsilçisidir, ailəni, uşaqları, ailə ocağını qoruyandır, eyni zamanda ailəyə – evin kişisinə sədaqət rəmzidir. Qu quşunun adı mənbələrdə "quğu" kimi verilir, ruscası "lebed"dir. Mahmud Kaşqarlıda da "quğu"dur. Rus dilində nəşr olunmuş "Qədim türk lüğəti"ndə onun söz açımı belədir: quğu – 1. lebed (Mahmud Qaşqarlı, III, 225) er quğu quşqa soğuşmış – ər ququ quşu ilə qovuşmuş (Tomson-Steyn, II, "Irq Bitik", II, 52;), 2. cefuna – quğu qondi başqa – başıma ququ qondu, yə'ni saçlarım ağardı ("Qutatqu bilig", Namanqan nüsxəsi, 404-408) (11, 464).

Azərbaycan şifahi xalq ədəbiyyatında və poeziyasında "ququ" və "quba qaz" sözlərilə yetərincə rastlaşmaq olar. Məs: Aşıq Ələsgərdə "Bənzəyirsən quba qaza Müşgünaz", yaxud gözəl qızların yerişinin quba qaza bənzədilməsi və sairə bu qəbildəndir. Nizami Gəncəvinin "Xeyir və Şər" mənzum hekayəsində göyərçinlərin sehrli lələyinin şəfaverici, gözə işıqverici gücü qeyd olunmuşdur. Quş lələyinin bir-birinə sürtülməsi ilə dar gündə haraya-köməyə çatmaqda qu quşlarının (həmçinin durna, göyərçin və s.) sehrli magik xüsusiyyətlərindən xəbər verir. M.P.Vaqifdə "Kür qırağının əcəb seyrangahı var, Yaşılbaş sonası, hayıf ki, yoxdur"

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məşhur misralarında dünya gözəllərinin obrazı "Yaşılbaş sona"da cəmləşir və s. "Dədə Qorqud kitabı"nda "qaza bənzər qız", "ağ sungur quşu erkəyində bir köküm var" ifadələri də təsadüfi deyilməmiş, qədimdən qəlib-bənzətmə – təşbeh əsasında reallaşmışdır.

Başqa xalqlarda olduğu kimi, türk-Azərbaycan mifologiyasında da heyvanlar xüsusi yer tuturlar. İlkin mifoloji düşüncələrdə heyvanlar, bitkilər və bir sıra cansız əşyalar – təbii varlıqlar – dağlar, çaylar və s. insanlarla eyni müstəvidə təsəvvür olunmuşdur. Ona görə də, təsadüfi deyil ki, duyğu xüsusunda insanlarla heyvanlar, bir qayda olaraq, eyni nizama tabe olunurlar (12, 67).

Mifik düşüncələr heyvan və quşların adi xüsusiyyətləri ilə yanaşı, magik cəhətləri də mühüm əhəmiyyətə malik olmuşdur. "Məlikməmmədin nağılı"nda divin canının göyərçində gizlənməsi sehrli quşun ruh daşıyıcısı olmasına bir işarə idi. Qədim dini təsəvvürlərdə qanadlı canlılar göylərlə əlaqəli olduqlarına və insandan fərqli olaraq, Tanrıya daha yaxınlaşa bilmək qüdrətinə sahib olduqlarına görə mö'cüzə, sirr sahibi idilər. Bu baxımdan, Baykal sahillərindəki qayalarda təsvir olunan süjetli petroqliflər içərisində qaz və qu quşlarının rəsmləri də maraqlıdır. Saqan-Zaba körfəzindəki qu quşlarına bənzəyən rəsmlərin haqqında yayılan folklorlar mifik süjetləri horin buryatları içərisində yaşayan əfsanə ilə səsləşir (13, 147-148).

Quşların göylərlə bağlılığını əsaslandıran çoxlu əfsanə və nağıllarda quşların lələklərinin də sakral, sehrli cəhətləri önəmli yer tutur. Əski türklərdə saça lələk düzmək, papağa, yaxud xanların, şahların tacına lələk taxmaq adəti olmuşdur. Lələyin hansı quşdan olması, rəngi, boyu və taxılma forması da müəyyən fikir ifadə etmişdir. Amerika qızıldərililərinin geyimində quş lələklərinin düzümü titul, çin mə'nasını ifadə etməklə qəhrəmanın kimliyi, hansı hörmətə və gücə sadiq olduğunu əsaslandırmışdır. Amerika hindularından at üstə lələklə təsviri xüsusi bir estetikanın tələblərini ifadə etmişdir (şəkil 2).

Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ndə göyərçin lələyinin gözə işıq verməsi və göyərçinlərin insanı dardan qurtarması təsvir olunmuşdur. Azərbaycanda tovuz, xoruz, qaz, göyərçin lələkləri ilə yanaşı, durna lələyinə daha çox üstünlük verilmişdir. "Koroğlu dastanı"nın bir qolu – "Koroğlunun Bağdad səfəri" bütövlükdə durna lələyinin gətirilməsinə həsr olunmuşdur. Sual olunur: hansı ehtiyac və hansı inam Koroğlu qəhrəmanlarını yayın isti günlərində Qafqazdan İraqa – Bağdada getməyə vadar etmişdir? Durna lələyi nə olan şeydir ki, ona ehtiyac duyulmuş və qəhrəmanlar uzaq yol getməyə məcbur olmuşlar. Dastanda bu lələyin qadınlar üçün vacibliyi qeyd olunur, lakin mə'nası o qədər də əsaslı şəkildə şərh edilmir. Lakin aydın görünür ki, övladı olmayan Nigar xanımın

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tələbi əsassız deyil. Burada lələk Tanrı himayəsinin rəmzidirsə, digər tərəfdən, övlad gətirən, sonsuzluğa bir əlac mə'nasını ifadə etməkdədir ki, bu da quşun – durna, qaz və qu quşunun analıq, nəsilartırma xüsusiyyəti ilə bağlı olduğunu açıq göstərməkdədir (14).

Bütün bunlar isə Sibir-Altay türklərinin ilkin təsəvvürlərinin eynilə Azərbaycanda da mövcud olduğunu əsaslandırmaqdadır. Bu baxımdan bir maraqlı dəlil də Qazaxıstanda İssık-Kul yaxınlığında tapılmış qızıl döyüşçünün üzüyünün üstündəki insan başı təsvirinin lələklə bəzədilməsidir. Bu lələk düzümü sonradan Avropada qəhrəmanların baş geyimində əsas yerlərdən birini tutmuşdur.

Əski türk-buryat əfsanələrində və qaya rəsmlərində ilkin quş təsvirləri

Əfsanəyə görə, xorin buryatlarının ulu babaları mifik qəhrəman Xoridoy, yaxud Xoridoy-Mergen olmuşdur. Xoridoy isə buryatların ən ulu babaları olan Buxa-noyonla Asuyxan adlı Şaman qızından törəmişdir. Bununla bağlı əfsanələr çox olsa da, görkəmli rus alimi A.P.Okladnikov başqa bir görkəmli rus alimi olan Q. N. Rumyantsevdən götürdüyü əfsanələrdən birinin üzərində xüsusi dayanmışdır. Əfsanənin məzmunu belədir: "Bir dəfə Çingiz xanın tabeçiliyində olan oyrat-buryat soyundan olan Şaman qızı Aysuxan Baykal gölünün qırağında gəzirdi. Orada gövşəyərək dincələn bir öküz görür. Aysuxan qərara gəlir ki, bu öküz Tanrı tərəfindən onun bəxtinə göndərilib. Şaman-qız gölün qırağında öküzlə birləşir və hamilə qalır. Onun iki oğlu doğulur: Buryaday və Xoriday. Böyük qardaş Buryaday bir dəfə ova çıxanda bir dağın zirvəsinə qalxır və orada söyüd ağacının budağında oturmuş qız görür və onunla evlənir. Buryadayın ondan iki oğlu olur. Böyüyün adını İkirid, kiçiyini Bolqod adlandırırlar. İkiridin səkkiz oğlu olur. Ondan törəyən nəsil İkirid (exirid) adlanır. Bolqod və Xoridoydan törəyənlər isə Baykalın hər iki sahilinə yayılmış və sonradan Monqolustan tayfaları ilə qaynayıb-qarışmışlar.


Şəkil 2.

Bir dəfə Xoridoy Olxan adasında dolaşarkən üç qu quşunun uçub gəldiyini görür. Onlar gölün sahilinə enib soyunurlar və üç

qıza çevrilib çimməyə başlayırlar. Xoridoy göy quşlarından birinin paltarını oğurlayır. Qızların ikisi çimib sudan çıxır, geyinib yenidən qu quşuna çevrilir və uçub göyə gedir. Üçüncü isə paltarsız uça bilməyib yerdə qalır və Xoridoya ərə gedir.

Xoridoyun ondan on bir oğlu olur, onlar böyüyüb xorinlərin on bir tayfasına başçı olurlar. Xoridoy lap qocalanda arvad ondan xahiş edir ki, ona köhnə qu paltarını geyməyə icazə versin. Qoca icazə verir və düşünür ki, onlar çox uzun illər bir yerdə yaşayıblar və ağlına belə gəlmir ki, arvadı ailəni tərk edib gedər. Demə Xoridoy səhv edirmiş. Xoridoyun arvadı köhnə paltarını geyib qu quşuna çevrilir və alaçığın bacasından uçub göyə qalxır. O zamandan xorin buryatlarında qu quşu, yaxud qartal uçanda göyə çay, süd atmaq adəti qalmışdır (15, 88-89).



Şəkil 3. Altun döyüşçü í

Əfsanənin başqa variantında deyilir ki, Xoboşi-xatun göylərə uçanda ailəsinə deyib ki, hər il ilk baharda və son baharda mən sizi yoxlamağa gələcəyəm, mənim şərəfimə bayram düzəldin (16).

Tədqiqatçılar qu quşlarına Orta Asiyanın başqa yerlərində rast gəlinmədiyini qeyd etməklə yanaşı, Kareliya, İsveçrə və Şimali Avropanın başqa yerlərində də belə rəsmlərin mövcudluğunu qeyd etmişlər (17, 94-97). Bununla belə, A.P. Okladnikov Monqolustanda qəbirüstü sal daş üzərində Saqan-Zabadakı kimi quş təsvirinə rastlandığını göstərir. V.V.Volkov bu rəsmdəki quşun dovdaq quşuna oxşadığını da qeyd etmişdir (18, 75). O zamanlar qəbir daşı üzərində rast gəlinən bu quşların Azərbaycanın Mingəçevir şəhərində arxeoloqlar tərəfindən aşkar edilmiş qəbirüstü quş şəkilləri ilə müqayisə etmək təəssüf ki, bu alimlərin xəyalına gəlməmişdir. Okladnikov belə qu quşu şəkillərinin Bratskidəki Böyük adadakı və Anqaranın aşağı sahillərindəki qayalıqlarda da olduğunu göstərmişdir. Oneqa gölü sahillərində çoxlu qu quşu təsvirlərini öyrənən V.İ. Ravdonikas "Bu quşların mühüm mə'na daşıdığını və təsərrüfat əhəmiyyətli olduğunu söyləməyin mümkün olmadığını" söyləmişdir.

Quş simvolu və onun Avrasiya ərazilərinə yayılması səbəbləri haqqında düşüncələr

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

V.İ.Ravdonikas haqlı olaraq qeyd edir ki, qu quşlarının səma ilə bağlılığı kosmik-semantik mahiyyət daşımış və Günəş simvolu olmuşdur. K.D.Lauşkin Kareliyadakı bu cür qu quşlarının təsadüfi olmadığını, Günəşə bağlı müəyyən bir inam,yaxud başqa bir mifoloji mə'na daşıdığını və ona böyük inam bəsləndiyini qeyd etmişdir.

Bu quşların məhsuldarlıq – nəsilvermə kultu olduğunu əksər alimlər (V.Volkov, K.Lauşkin, B.Ravdonikas və s.) qeyd etmişlər. K.Lauşkin belə qənaətə gəlir ki, çox sayda qu quşlarının Oneqa gölü sahillərində qayalara həkk olunması Günəşə və onun əkizi sayılan Aya sitayişin güclü tə'siri nəticəsində ola bilərdi. Araşdırmaçı bunun ölülərin ruhu ilə də əlaqələndirildiyini bildirmişdir (19, 231-232). A.Okladnikov qayaüstü rəsmlərdə bə'zi heyvan və insan fiqurlarının olduğu kimi, bə'zilərinin başqaları ilə müqayisədə çox nəhəng, bə'zilərinin isə sxematik təsvir olduğunu qeyd edir (20, 112-113). Müəllif bunu təsvirin ilkin dövrəsinə aid edir ki, onun da tarixi e.ə. I minilliyin IX yüzili kimi tarixləşdirilir. Burada söhbət Lena çayının yuxarı bölgələrindən və Vorobyov petroqliflərindən gedir. Bu petroqliflər Baykaldakılara ərazi və üslubca yaxındır. A.Okladnikov Lena və Baykal yazılarını, xüsusilə at və atlı adam təsvirlərini orta əsr avropalıların – xəzər və Mayatsk əski bolqarlarının Dunayda (Pereslavda) təsvirləri ilə əlaqələndirərək qeyd edir: "Atlardan və atlılardan başqa bizə çoxlu rəsmlər yadigar qoymuş köçəri türklər, eyni zamanda, keçi və maral ovu səhnələrini də böyük həvəslə rəsm etmişlər" (21, 114). Alimin qu quşları, balıq, doğan qadın, ayin döyüşü, ilan kultu ilə bağlı, qayaüstü rəsmlərin Kareliya, Skandinaviya ilə eyni süjetə malik uyğunluğu, Saqan-Zaba antropomorf fiqurlarının Baykaldan Baltikə qədər yayıldığını, maral, at və "bəbir" rəsmlərinin isə Şimal Buzlu okean sahillərinə, Yakutiyadan Norveçin Kol yarımadasınadək yayıldığını qeyd edərək göstərir ki, eynitipli etnik mədəniyyətin belə böyük bir masştaba yayılması Avrasiya əhalisinin qədim və zəngin əlaqəsi olduğunu sübut edir. O, bu mədəniyyətin yaradıcıları sırasında qədim fin-uqor tayfalarının, skif-sibir mədəniyyətinin daşıyıcıları olan irandilli tayfaların (bu fikir müasir elmdə şübhəlidir – İ.V.) və qədim torpaqların və yukaqirlərin adlarını çəkir (22, 118-119). Rus alimi – arxeoloqu S.İ. Rudenkonun "Dağlıq Altay tapıntıları və skifləri" (1952) kitabında Pazirik kurqanından tapılmış əşyalar üzərindəki qaz, qu quşu, qartal, şahin və qanadlı aslan və digər canlıların rəsmləri də əski skif mədəniyyətində önəmli yer tutduğunu göstərir (23, 159-200). Göründüyü kimi, haqqında söhbət gedən eynitipli mifoloji süjetlərin Altay, Yenisey vadiləri, Kareliya və Skandinaviyaya yayılması qədim dövr üçün heyrətdoğurucu bir hadisə kimi dəyərləndirilir. Eyni tipli, eyni mifoloji düşüncəni ifadə edən süjetlərin Qobustan, Gəmiqaya, Urmiya sahilində yayılması və müqayisəsi

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Okladnikov kimi böyük alimlərin diqqətindən bir qədər yayınmışdır. Buna səbəb isə Qobustan, Gəmiqaya və Urmiya təsvirləri barədə həmin dövrdə elmi informasiyanın azlığı və yayımının məhdud olduğunu göstərmək olar.

Buryatlar üçün xarakterik olan və şamanizmdə son zamanlaradək yaşayan etnik ən'ənənin Skandinaviyaya və Qafqaza, ondan da cənuba və cənubi-şərqi Avropaya qədər yayılması isə bu mədəniyyətin tarixi kökləri barədə daha ciddi düşünməyə və araşdırmalar aparmağa maraq yaradır. İsveçrədə arxeoloqlar üçün dərslik yazan Aksel Moberq bir-birinin əkizi olan Anqara, Lena və Skandinav petroqliflərinin rəsmlərini vermiş və bu, dövrü mətbuatda böyük maraq doğurmuşdur (24, 121). A.Okladnikovun haqlı olaraq qeyd etdiyi kimi, insanları birləşdirən bu mədəniyyət yalnız dəmir dövründə deyil, ondan yüzillər öncə yayılmışdır və bu, maneə, sərhəd tanımadan insanların və onların ideyalarının birliyini nümayiş etdirir. Maraqlıdır ki, A.Okladnikov başqa alimlərdən fərqli olaraq, bu ərazilərdə geniş köçəri-türk mədəniyyətinin yayılmasını qeyd edir. O, bu böyük mədəni ən'ənənin çox uzaq zamanlarda formalaşmasını göstərərək yazmışdır:

"Bəlkə də, sonradan dünyəvi süjetlərin əsasını təşkil edən və bütün eykumenlər arasında yayılan bu təsvirlər çox uzaq zamanlarda Avrasiyada insan cəmiyyətinin özəyi formalaşarkən meydana gəlmişdir" (25, 123). Bütün bunlar tarix səhnəsində sonralar kuman, uman, kimmer, skif, saq, poloves, köçəri, çöllü, kazak, xəzər, azər və s. adlarla üzə çıxan eyniménşəli – ən qədim tayfaların minillərlə yaşadıqları və hərəkət etdikləri ərazilərdə mifoloji təsəvvürlərin və ilkin mədəniyyətin eyni sosial mühit çərçivəsində formalaşdığını göstərir.

## Azərbaycanda quş təsvirləri:əski çağlardan günümüzədək

Azərbaycan ərazisində Qobustan, Gəmiqaya, Kəlbəcər yazılı qayalarında, o cümlədən qəbirüstü daşlarda eyni üslublu rəsmlərin mövcudluğu və həmin üslubun indiyədək təsvirin indiki sənətimizdə davam etməsi də maraqlı fakt kimi dəyərləndirilə bilər.

## Misir mifologiyasındakı quşlar haqqında

Qədim Misir mifologiyasında da bu mövzu ilə bağlı, maraqlı bilgilərə rast gəlmək olur. Misir və ümumən, Şərq mifologiyasında dünyanın bitkilərdən, Şanagül – lotos (yaxud, zanbaq) çiçəyindən yarandığı təsəvvürü mövcud olmuşdur. Allahların, insanların və kainatın heyvanlardan, quşlardan, ilahi və ilahələrdən yaranması düşüncələri də geniş yayılmış-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dır. Misir əfsanələrinin bə'zilərinə görə, Günəş səma inəyindən doğulur, bə'zilərinə görə, şanagül çiçəyindən, yaxud qaz yumurtasından yaranır (26, 14-15). Göründüyü kimi, yaranışın əsasında inək (öküz, maral), sanagül (lotos, zanbaq, şam, yaxud qədir ağacı və s.) və quş (qu quşu, qaz, ördək, durna, göyərçin və s.) əksər xalqların mifologiyasında başlanğıc elementinə çevrilir. Başqa bir mifə görə, ilk günəş "feniks" huma quşundan çıxıb. Qədim dini mətnlərə görə, Günəş yerdən çıxan qaz yumurtasından əmələ gəlmişdir. Həmin qazın isə adı "Qoqotun"dur (27, 18). "Qoqo" və türk dillərindəki Ququ adlarının oxşarlığı da diqqəti çəkir. Başqa bir əfsanədə isə Günəş və Ayın hərəsinin səma şahininin bir gözü olduğu inancı yer alır (18-19).

Əski türklərdə, o cümlədən də Azərbaycan mifik düşüncəsində quş və ilan ailənin, övladın, nəslin və odun, ocağın, işığın, mülkün, var-dövlətin, xəzinənin qoruyucusu-himayədarıdır. Bu fikrin indi də xalq içərisində yaşaması faktları mövcuddur.

Bu baxımdan "ev ilanı", "əl ilanı", "ocaq ilanı", "tale quşu", "baxt quşu", "şahlıq quşu", "ümid quşu", "can quşu" və s. ifadələr xalq içərisində geniş yayılmışdır. Yaxud, "varı çox olan evə ilan gələr", "qızılı olmasa, ilanı gəlməz", "ilansız xəzinə olmaz", "filankəsin sandığında ilan gizlənib" (yə'ni qızılı çoxdur), "filankəsin ilanı tərpənib" (yə'ni pulu, varı o qədər çoxalıb ki, bədxərclik eləmək həvəsi gəlib, hara gəldi pul sərf edir).

Quşla bağlı deyimlər də çoxdur: "Quş kimi uçdu getdi", "başına quş qonub", "quşu göylərdə uçur", "tərlan uçuran vaxtıdır", "durnası başının üstündədir", "hər işi düzəlib, lələk tutmağa ehtiyacı yoxdur", "nəfəs – uçan quşdur", "quşu çoxdan uçub" (yə'ni qocalıb, heydən düşüb, yaxud daha bəxti gətirməz), "uçanda qəbrinə durnalar lələk salır", "durna telli gözəl" və s.

Maraqlıdır ki, Misir mifologiyasında da himayəçi-qoruyucu ilahələr quş və ilan obrazında təsvir olunmuşlar və əksər halda hər ikisi eyni ritmə sahibdirlər və oxşar funksiyaları yerinə yetirmişlər.

Misir mifologiyasında, xüsusilə Osirislə bağlı mifoloji mə'lumatlarda da quşun iştirakı doğurur. Osiris (yazın, işığın, yaşıllığın təmsilçisi kimi) qardaşı Set (o da qızın, zülmün təmsilçisi sayılır) tərəfindən öldürülür. Ra (günəş allahı) onun bədəninin parçalarını yığıb birləşdirir və balzamlatdırır. İlahə İsida dişi şahin cildinə girib onun cəsədinə qovuşur və hamilə olur, ondan oğlu Qor – yer üzərindəki canlıların hökmdarı və himayədarı dünyaya gəlir (28, 53-57). Buradakı quşla bağlı iki əhvalat diqqəti cəlb edir. Birincisi, qızın quşa çevrilməsi, ikincisi, övladın quşdan doğulması, yə'ni quşun ananın simvolunu ifadə etməsi görünür. Qızın quşa çevrilərək hamilə olması ilkin mifik fəlsəfi-dini təfəkkürə görə labüd sayılmışdır, çünki başqa cür insanın göylərlə əlaqəsini əsaslandırmaq

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mümkün olmazdı. Əgər ata başlanğıcı kimi günəş və işıq əsas idisə, deməli, ana da göylərlə bağlanmalı idi. Ona görə də ananın quş cildinə daxil edilməsini mifik düşüncə vacib saymışdır. Ananın dünyaya övlad verdikdən sonra yerdə vəzifəsi tamamlanır və yenidən ilahi vəzifəsini yerinə yetirmək üçün göylərə qayıdır (Baykal əfsanəsində olduğu kimi). Əski dini-mifik görüşlərə görə də ana – günəş timsalındadır: hər səhər günəşi doğur, axşamlar isə qoynunda saxlayır. Ona görə də göylər yalnız yerin, insanların deyil, bütün kainatın anası – himayədarı olur. Qafqaz xalqlarında (türk, fars, erməni və s.) Anahid obrazı da məhz başlanğıcın ifadəçisi, bütün yaranışın anası və qoruyucusudur.

Misir fəlsəfəsinə görə, yenidən dirilən Osiris ruhu ağac və bitki timsalında üzə çıxır. Ona görə də Osirisi də hər iki tərəfdən ana ruhu olan quşlar qoruyur (şəkil 4).

Misir abidələrində olduğu kimi, Azərbaycan xalçalarında və sənət əsərlərində də həyat ağacını küknar, üzüm, solmaz çiçəyi və s. ifadə etmişdir. Osirisin qəbri üzərində onun ruhunun ifadəçisi şam (küknar) ağacıdır ki, onun da üzərində qoruyan ana ruhu – quş şəkli təsvir edilmişdir (şəkil 5).

### ßÄßÁÈÉÉÀÒ


1. http:www.tibet.ru.Словарь буддизма
2. О мифологии индоевропейских народов. http:www. //sm.aport. ru/ sekriпts/template.
3. Исторический портал. Historic.ru ("Песни птицы Гамаюн").
4. Скифская епоха Алтая /Публикации/ Фролов, Чекражова http://hist.denasu.ru/ pub/stat/frolov1.html.
5. Təhmasib M. H. Əfsanəvi quşlar. "Vətən uğrunda", 1945, №5
6. Simurq quşu. ASE, 8-cild, Bakı 1984
7. "Kitabi - Dədə Qorqud"un izahlı lüğəti. Bakı. Elm, 1999
8. Yenə orada.
9. Yenə orada.
10. Yenə orada.
11. Древнетюркский словарь. Л., 1969
12. Mehmet Kaplan. "Dədə Qorqud kitabı"nda heyvanlar. Türk ədəbiyyatı üzərində araşdırmalar. I c., İstanbul, 1976
13. Румянтцев Г.Н. Происхождение хоринских бурят. Улан-Уд., 1962, s. 147-148
14. "Koroğlu" dastanı. Gənclik, Bakı
15. Окладников А.П. Петроглифы Байкала – памятники древней культуры народов Сибири. Новосибирск. Наука, 1974
16. Yenə orada.
17. Окладников А.П. Шишкинские писаницы. Иркутск, 1959
18. Волков В.В. Бронзовый и ранный железный век северный Монголии. Улан-Батор, 1967, VII


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com



Şəkil 4. Həyat ağacı içərisində yenidən dirilən Osirisin dibçəyini hər iki tərəfdən quşlar qoruyur.


19. Лаушкин К.Д. Оненское святилище, s. 2. Опытновой расщифровки некоторах нетролифов карелии. Скандинавский сборник, Таллин, 1962, вып.V

20. Окладников А. Петроглиф Байкала...

21. Окладников А. Петроглифи Байкала...

22. Yenə orada.

23. Руденко С.И. Горноалтайские находки и скифа. М.-Л., 1952

24. Yenə orada.

25. Yenə orada.

26. Матье М.Э. Древнеегипетские мифа. Наука, М-Л., 1956

27. Yenə orada.

28. Matye M.E. Göstərilən əsəri.




Şəkil 5. Osirisin qəbrini qoruyan şam ağacı və quş.